# SEYRAN SƏXAVƏT – GÖZÜNƏ İŞIQ DÜŞMÜŞ ADAM

**(əvvəli ötən saylarımızda)**

### *"Nekroloq" romanında*

**isə S.Səxavət bədii təsvirdə Zaman və Məkan hüdudlarını genişləndirir. Açıq demək lazımdır ki, romanda çağdaş Azərbaycan mənzərəsi (ictimai-siyasi-mənəvi) əks olunmuşdur. Mənzərə bütöv və genişdir, cəmiyyətin bütün zümrələrini əhatə edir: çadırlarda yaşayan və cəhənnəm həyatı keçirən soydaşlarımızdan tutmuş nəhəng maliyyə fırıldaqları ilə məşğul olan mafioz qruplara qədər Romanda sanki zaman anlayışı da şərtidir. Şərti simvolik, rəmzi vasitələr də romanda həyat həqiqətinin məntiqilə uyuşur.**

Əsərdə təsvir olunan Məkan da bizə tanışdır: "Buraların ərazisi indikindən qat-qat böyük olub: əvvəl qeyri-bərabər şəkildə iki bölüblər - Quzeyə və Güneyə. Qonşular bölüşdürüb, alışma eləyiblər, "uf" da deməyiblər, dillənməmişik, ufuldamamışıq, ağrımamışıq, ağrıya bilməmişik, çünki sağlam can ağrıyar... Ölmüş adamı şaqqalasan da xəbəri olmaz- ölüdü.İki yerə bölünəndən sonra da ağılları başına gəlməyib, elə yeyib yatıblar, düşməni süfrələrinin başına keçiriblər, düşmən də düşmənçiliyini eləyib, girib bunların qılığına ki, bəs qardaşıq. Elə o vaxtdan da evləri yıxıldı, düşmən üstlərinə ayaq açdı: xanlıqlar, mahallar şəhərlər, kəndlər asta-asta əldən getdi. Torpağı torba ilə daşındı. Dedilər: "bir torba torpaq nədi ki..." Bilmədilər ki, bir torba torpağı göylər kişnəyib, buludlar ağlayanda, qəriblid canını tapşıran yüzlərlə qəribin gözünə tökmək olar. Hardan biləydilər..."

### *Deməli, məkan məlumdur,*

***söhbət məmləkətimizdəki məlum olaylardan gedir.Ancaq S.Səxavət romanda konkret olaraq kimə isə işarə eləmir, bu son illərin ictimai-siyasi hadisələrinin canlı iştirakçıları da nəzərə çarpmır. Ustalıq elə bundadır. Lövhələr isə nə qədər tanış və həm də realdır. Soydaşlarımızın zillətlə ömür sürdüyü çadır həyatı, işsizliyin barometri olan "Qul bazarı" və böyük varidat sahibi olanların cəm olduğu təmtəraqlı kef məclisləri sizə də tanış deyilmi? Digər tərəfdən, S.Səxavət xalqın düçar və məhkum olduğu maddi və mənəvi fəlakətlərin qədəri azmış deyə romanın lap başlanğıcında tağii fəlakəti - böyük qasırğa və seli də buraya əlavə edir.***

Beləcə, romanda kədərli və hüznlü səhnələr bir-birini əvəz edir. Əlbəttə, bu səhnələrin bir çoxu real məntiqlə yanaşdıqda bəlkə bir az hiperbolik səviyyədə nəzərə çarpır, acaq Seyran çadır şəhərciyində adiliyə çevrilmiş vərdişləri, yaşayış tərzini daha qabarıq vermək üçün, ən başlıcası isə bu vərdişin və psixologiyanın gələcəkdə daha qorxulu bəlaya çevrilməməsi üçün bədii sözün bu çalarına üz tutur.



### *Romanda məcazi-simvolik mahiyyət*

***daşıyan, Xalqın ölümü ilə bağlı heykəllərin mitinqi səhnəsi müəyyən qədər plakatçılıq təsiri bağışlasa da,hər halda, bədii təsiri etibarilə maraqlıdır. Xalqın keçdiyi yolun və qarşılaşdığı bütün müsibətlərin mənzərəsi dahilərin fikir və mülahizələri fonunda ümumiləşdirilir.***

"Ağrı" Seyranın ilk povestlərindən biridir və bu povestdə Seyranın gələcək yazılarına xas olan bir çox ümdə xüsusiyyətlər nəzərə çarpır.Xüsusilə, təbiilik kimi ən vacib məziyyət bütün rəngarəngliyilə üzə çıxır.Seyranın kənd həyatına bələdliyi, kəndçi psixologiyasını dərindən bilməsi bu povestin hər abzasında hiss olunurdu. Doğrudur, bu əsərdə hələ qüvvətli xarakterlər, dolğun obrazlar yox idi, amma qibtəediləcək dərəcədə kənd koloriti görünürdü.

Əsər müharibə illərindən söz açırdı, onun ağrı-acılarından danışırdı.

Seyranın "müharibə uşağı" olmadığını bilirik, amma bu, qətiyyən əsərdə hiss olunmurdu, elə bil, Seyran o illərdən çıxıb gəlmişdi və gördüklərini danışırdı, eşitdiklərini yox. Yazıçı məharəti də elə bunda idi.

Seyran Səxavəti "kənd yazıçısı" adlandırmaq istəməzdik, bu istilah indi sadəjə olaraq gülüş doğura bilər. Ancaq kənddən yazılan çox-çox əsərlər var ki, həmin əsərlərdə kəndin ancaq adı var, belə əsərlər qupquru bir süjetdən və bir-iki insan surətinin təsvirindən başqa heç nə deyil. Seyranın kənddən, kənd adamlarından qələmə aldığı bütün əsərləri bir yerə yığsan, üstündə möhtəşəm bir "KƏND" sözü yazmaq olar. Təsvir olunan Aəzrbaycan kəndi bütün görkəmiylə Seyranın povest və hekayələrində bardaş qurub oturub-bir-birinə bənzəyən və bir-birinə bənzəməyən adamlarıyla, otuynan-ələfiynən, daşıynan, gədiyiynən, çölüynən-çəməniynən, ağsaqqalı-ağbirçəyiynən, nağılı-nəğməsiynən...

Əgər diqqət yetirsək, Seyran Səxavətin kənddən yazdığı əsərləri zaman xronikallığbaxımından diqqəti cəlb edir, "Ocaq daşı" müharibədən sonrakı illərin kəndini və adamlarını təsvir edir, "Gözü işığa düşmüş adam" əllinji illərdən söz açır,səksəninci illərin kəndi də Seyranın bir çox hekayələrinin mövzusuna çevrilir ("Qaçay müəllim", "Çayçı Rəşid", "Mən kiməm", "Bir kisə kartof", "Alça çiçəyi", "İşıq xətləri").

Eyni zamanda, Seyranın hekayə və povestlərində kəndin get-gedə şəhər elementlərini qəbul etməsi ("Gözü işığa düşmüş adam") və kənddən gələnlərin şəhərdəki macəraları da öz əksini tapır, bu da 60-70-ci illər Azəbayjan nəsri üçün xarakterik mövzulardan idi.

### *Seyran Səxavət nəsrini*

elmi-tənqidi fikrimizdə "altmışıncılar" adlandırdığımız ədəbi nəslin uğurlu davamı kimi də səciyyələndirmək olar. Burada heç bir qəbahət görmürəm. Ancaq DAVAM TƏKRAR DEYİLDİR. Əgər "Yeni Azərbaycan nəsri" termini bir daha gündəmə gəlirsə, Seyranın əsərlərini də bu o zamankı təbirlə söyləsək, yeni nəsr saymaq olar

***Xalq yazıçısı Elçin 1983-cü ildə "Literaturnayı uçyoba" jurnalının oxujularına Seyran Səxavətin "Madonnanın əri Fərəməz kişi" hekayəsi haqqında səmimiyyətlə söz açmış, onun bir nasir kimi özünəməxsusluğunu qeyd etmişdi. Elçinin o zaman Seyran Səxavətin bu hekayəsi barədə söylədiyi fikirlər tezliklə özünü doğrultdu. Seyran Azərbaycan nəsr koloritli qəhrəmanlar, məxsusi danışıq tərzi gətirdi. Fərdi üslubun realizəsini biz həm bu qəhrəmanların tipajında-məxsusi səciyyəsində, həm də onların nitqində izlədik.***

Elçinin təqdir etdiyi "Madonnanın əri Fərəməz kişi" hekayəsi adi insandan dolğun xarakter yaratmağın ən uğurlu nümunəsidir. Bu hekayədə Mirzə Cəlil, Haqverdiyev nəsrindən süzülən işıqlı bir yumor var.

### *Müəllif çevikliklə*

***Fərəməz kişinin-heç kimə ziyanı dəyməyən, heç kimdən təmannası olmayan bu gülməli və məzəliliyi ilə hamını güldürən bu insanın sadəcə hərəkətlərini izləyir və izlədikcə də onun qəribə hərəkətləri arxasında bir saflıq, bir təmizlik axtarır. Yox, Fərəməz kişi kimsənin anlamadığı faciəli qəhrəman deyil, əksinə, o, komik qəhrəmandır. Budur, bir səciyyəvi detal: "Kənd arvadlarının çoxusu Fərəməz kişini kişi hesab eləmirdilər, ondan utanıb-çəkinmirdilər. Çünki Fərəməz kişi onların "məclislərinin" daimi iştirakçısı idi. Arvadlar ona öyrəşmişdilər, onu özlərinin biri hesab edirdilər.Fərəməz kişi bulaq başında saatlarla arvadlara nağıl danışır, bəzən də nağıldan kənara çıxıb ağzına gələni uydururdu.***

Fərəməz kişi müharibədə də poçtalyon olub. Ona elə gəlirdi ki, savad məsələsində kənddə heç kəs onun qabağına dura bilməz. Kənddə göstərilən kinofilmlərin hamısına baxırdı". Onun ölümü də unudulmur,

Səhərə kimi arvadlar bardaşqurma oturub Fərəməz kişinin üstündə ağı deyib ağladılar".

Seyran Səxavətin qəhrəmanlarının heç biri Sovet ədəbiyyatının "müsbət qəhrəman"larından deyil. Əksinə, o, bəlkə də "müsbət qəhrəman"lara parodiya səviyyəsində qələmə alınnan obrazlara daha çox meylli olmuşdur. Onun təsvir etdiyi obrazların əksəriyyəti təmiz və işıqlı insanlardır. " Gözünə işıq düşmüş adam" povestindəki Salman obrazını Seyranın obrazları içərisində bəlkə də ən işıqlısı hesab etmək olar..

Seyran Səxavətin əsərlərində bir təmiz, işıqlı, nejə deyərlər, ürəkaçan lövhələr var, bir də "Nekroloq" romanında, "İt intervüsü" , "Cəhənnəm", "Boynu əyri kişi" hekayələrində olduğu tək qara, tünd lövhələr. Təbii ki, bu qara, tünd lövhələr yızıçının təsvir etdiyi həyat hadisələrinə faciəvi aspektdən yanaşdığını sübut edir. Həyatın neqativ olaylarından yalnız bu şəkildə söz açmaq olar. Bu, yazıçının nə üslubunu, nə də həyata münasibətini ikiləşdirmir.Onun "Qızıl təşt" povestini 70-80-ci illər Azərbaycan gerçəkliyinin tragik notları hesab etmək olar. "İt intervüsü", " Boynu əyri kişi" və "Cəhənnəm" hekayələri isə Azərbayjan gerçəkliyinə böhtan deyil, yaşadığımız günlərin ağrıları-acılarının inikasıdır.

**Seyran Səxavət indii yaradıcılığının kamillik dövrünü yaşayır.**

**75 yaşın mübarək!**

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**